Azərbaycan Respublikasının
Mərkəzi Bankı İdarə Heyətinin
“11” iyul 2024-cü il
tarixli qərarı ilə təsdiq edilmişdir
Protokol № 28

# Banklarda ekoloji risklərin idarə edilməsi üzrə
# T Ə L İ M A T

**Mündəricat**


1. Ümumi müddəalar ........................................................................................3
2. Anlayışlar........................................................................................................3
3. Ekoloji risklər üzrə korporativ idarəetmə çərçivəsi..........................................4
4. Ekoloji risklərin idarə edilməsi üzrə daxili siyasət və prosedurlar.....................5
5. Ekoloji risklərin müəyyən edilməsi və qiymətləndirilməsi................................5
6. Ekoloji risklərin tənzimlənməsi və monitorinqi..................................................6
7. Ssenari təhlili və stress-testlər.........................................................................9
8. Məlumatların açıqlanması və hesabatlıq .........................................................9

   “Banklarda ekoloji risklərin idarə edilməsi
   üzrə Təlimat”a Əlavə 1……………………………..……………………………11

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) “Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi 2023-2026” və qabaqcıl beynəlxalq təcrübə əsasında hazırlanmışdır və banklarda ekoloji risklərin idarə edilməsi üzrə tövsiyələri müəyyən edir.

1.2. Mərkəzi Bank iqlim dəyişmələri və ətraf mühit ilə əlaqəli digər amillərdən yaranan maliyyə risklərini orta və uzunmüddətli perspektivdə maliyyə sabitliyi üçün əsas risklərdən biri kimi qəbul edir və bankların bu risklərə qarşı dayanıqlığının təmin edilməsini özünün strateji hədəfləri sırasına daxil etmişdir.

1.3. Bu Təlimatın məqsədi ekoloji risklərin banklarda risklərin idarə edilməsi sisteminə inteqrasiya edilməsi və həmin risklərə qarşı dayanıqlılığın təmin edilməsidir.

1.4. Təlimatda qeyd edilən tövsiyələr minimum xarakter daşıyır və hər bir bankın ekoloji risklərə həssaslığı, biznes mühiti və risk profili nəzərə alınmaqla tətbiq edilir.

## 2. Anlayışlar

2.1. Bu Təlimatda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **Ekoloji risk –** iqlim riskləri, habelə ekoloji çirklənmə, təbii resursların və biomüxtəlifliyin deqradasiyası və su çatışmazlığı kimi ətraf mühit problemlərinin yaratdığı risklər;

2.1.2. **İqlim riski –** iqlim dəyişmələri ilə əlaqədar bankların fiziki və keçid risklərinə məruz qalmasından yaranan risklər;

2.1.3. **Fiziki risk –** ani baş verən təbiət hadisələrinin tezliyinin və kəskinliyinin artması (məsələn, daşqın, meşə yanğınları, torpaq sürüşmələri, tufan), eləcə də iqlim göstəricilərində tədricən baş verən dəyişikliklər (məsələn, temperaturun artması, yağıntıların artması, dəniz səviyyəsinin qalxması) nəticəsində yaranan risk;

2.1.4. **Keçid riski –** aşağı karbon iqtisadiyyatına uyğunlaşma prosesində (məsələn, hüquqi və texnoloji mühitdə baş verən dəyişikliklər, müştəri davranışının dəyişməsi) yaranan risk;

2.1.5. **İstixana qazlarının emissiyası –** bankın birbaşa və dolayı fəaliyyəti nəticəsində ətraf mühitə buraxılan və aşağıdakı üç qrupa ayrılan zərərli qazlar:

2.1.5.1. **1-ci dərəcəli emissiya –** bankın birbaşa fəaliyyətindən yaranan emissiya (məsələn, banka məxsus nəqliyyat vasitələrindən havaya buraxılan zərərli qazlar);

2.1.5.2. **2-ci dərəcəli emissiya –** bankın istifadə etdiyi enerji mənbələri nəticəsində yaranan emissiya (məsələn, bankın istifadə etdiyi enerjinin istehsalı üçün havaya buraxılan zərərli qazlar);

2.1.5.3. **3-cü dərəcəli emissiya –** bank tərəfindən müştərilərin maliyyələşdirilməsi nəticəsində yaranan emissiya (məsələn, karbon tutumlu iqtisadi fəaliyyətin maliyyələşdirilməsi və bu fəaliyyətin realizasiyası ilə havaya buraxılan zərərli qazlar).

## 3. Ekoloji risklər üzrə korporativ idarəetmə çərçivəsi

3.1. Bankın Müşahidə Şurası və İdarə Heyəti bu Təlimat nəzərə alınmaqla ekoloji risklərin bankın risk iştahası, strategiya və biznes planlarına inteqrasiyasını təmin edir. Bu xüsusda, ekoloji risklərin, habelə aşağı karbon iqtisadiyyatına keçid ilə bağlı yaranan fürsətlərin müəyyən edilməsi, onların bankın strategiya və biznes modelinə qısa, orta və uzunmüddətli dövrdə potensial təsiri qiymətləndirilir. Həmçinin, bankın Müşahidə Şurası və İdarə Heyəti bu Təlimat nəzərə alınmaqla ekoloji risklərin bankın risklərin idarə edilməsi sisteminə inteqrasiyasını, habelə bu risklərin qiymətləndirilməsi, tənzimlənməsi, monitorinqi və hesabatlığı üzərində effektiv nəzarəti təmin edir.

3.2. Bankın ekoloji risklər ilə bağlı siyasəti ölkənin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişində nəzərdə tutulan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr[1] (bundan sonra - Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr) ilə müəyyən edilmiş hədəfləri ilə uzlaşdırılır.

3.3. Müşahidə Şurasının ekoloji risklərinin idarə edilməsi üzrə vəzifələri aşağıdakılardan ibarətdir:

3.3.1. ekoloji risklərin idarə edilməsi siyasətinin təsdiq edilməsi və icrasına nəzarət edilməsi;

3.3.2. risk iştahası bəyannaməsinə ekoloji risklər üzrə müvafiq keyfiyyət və kəmiyyət indikatorlarının daxil edilməsinin təmin edilməsi. Keyfiyyət indikatorlarına bankın ekoloji risklərin idarə edilməsinə yanaşması, kəmiyyət indikatorlarına isə ekoloji risklərə əhəmiyyətli dərəcədə həssas olan sektorlara və ya müştərilərə münasibətdə tətbiq edilən limitlər daxil edilə bilər;

3.3.3. ekoloji risklərin idarə edilməsinə İdarə Heyətinin üzvü səviyyəsində məsul şəxsin müəyyən edilməsi;

3.3.4. bankın idarəetmə orqanlarının, o cümlədən ekoloji risklərin idarə edilməsinə məsul şəxsin vəzifə və səlahiyyətlərinin müəyyən edilməsi;

3.3.5. ekoloji risklər üzrə daxili hesabatlılıq çərçivəsinin formalaşdırılması.

3.4. İdarə Heyətinin ekoloji risklərin idarə edilməsi üzrə vəzifələri aşağıdakılardan ibarətdir:

3.4.1. ekoloji risklərin idarə edilməsi siyasətinin hazırlanması və təsdiq edilməsi üçün Müşahidə şurasına təqdim edilməsi;

3.4.2. ekoloji risklərin idarə edilməsi siyasətinin icrasının təmin edilməsi;

3.4.3. bankın risk profili və biznes strategiyasında baş verən dəyişikliklər nəzərə alınmaqla ekoloji risklərinin idarə edilməsi siyasətinin, alətlərin və göstəricilərin effektivliyinin müntəzəm nəzərdən keçirilməsi və zəruri hallarda müvafiq düzəlişlərin edilməsi;

3.4.4. bankın məruz qaldığı ekoloji risklərin təhlil edilməsi və əhəmiyyətli təsirə malik risklərin azaldılması üçün zəruri tədbirlərin görülməsi.

3.5. Ekoloji risklərin idarə edilməsinə məsul şəxsin vəzifələri ən azı aşağıdakılardan ibarətdir:

3.5.1. ekoloji risklərin idarə edilməsi siyasətinə dair təkliflərin hazırlanması;

---

[1] Nationally Determined Contributions (NDC)

3.5.2. ekoloji risklər üzrə strategiya və siyasətin bankın bütün struktur bölmələri səviyyəsində icrasının əlaqələndirilməsi və bankın üç müdafiə xəttinə inteqrasiya edilməsi;

3.5.3. ekoloji dayanıqlılıq amillərinin biznes strategiyası, risk iştahası bəyannaməsi və risklərin idarə edilməsi sisteminə daxil edilməsi üzrə təkliflərin hazırlanması;

3.5.4. ekoloji risklər və dayanıqlılıq üzrə bankın müəyyən etdiyi hədəflərə nail olunmasına yönəlmiş strateji təşəbbüslərə dair təkliflərin hazırlanması;

3.5.5. Müşahidə Şurası və İdarə Heyətinə ekoloji risklərin idarə edilməsi və dayanıqlılıq məsələləri üzrə ekspert dəstəyinin göstərilməsi;

3.5.6. ekoloji risklərin idarə edilməsi üzrə bankın daxili potensialının formalaşdırılması və bununla bağlı təlim proqramlarının təşkili.

## 4. Ekoloji risklərin idarə edilməsi üzrə daxili siyasət və prosedurlar

4.1. Bank ekoloji riskləri sistemli və ardıcıl şəkildə idarə etmək üçün həmin risklərin idarə edilməsi çərçivəsini formalaşdırır. Bu çərçivə aşağıda qeyd olunan istiqamətlər üzrə daxili siyasət və prosedurları əhatə edir:

4.1.1. ekoloji risklərin idarə edilməsində biznes bölmələrinin və funksiyalarının vəzifə və öhdəliklərinin aydın təsviri;

4.1.2. ekoloji risklərin müştəri və portfel səviyyəsində müəyyən olunması və qiymətləndirilməsi;

4.1.3. ekoloji risklərin idarə edilməsi üçün effektiv risk idarəetmə təcrübələrinin və daxili nəzarət sisteminin tətbiqi;

4.1.4. ekoloji risklərlə bağlı Müşahidə Şurası və İdarə Heyətinin vaxtında məlumatlandırılması.

4.2. Üç müdafiə xətti modelinə uyğun olaraq bankda aşağıda göstərilənlər nəzərə alınmaqla ekoloji risklərin idarə edilməsi üzrə vəzifə və səlahiyyətlərin dəqiq bölgüsü aparılır:

4.2.1. biznes yönümlü struktur bölmələr tərəfindən müştərilər ilə işgüzar münasibətlərin qurulmasından əvvəl, habelə belə münasibətlərin davam etdiyi müddətdə ekoloji risklər mütəmadi qiymətləndirilir (birinci müdafiə xətti);

4.2.2. risklərin idarə edilməsi funksiyası birinci müdafiə xətti tərəfindən bankın ekoloji risklərin idarə edilməsi siyasətinə riayət edilməsini monitorinq edir, komplayens funksiyası isə müvafiq qaydalara riayət olunmasını qiymətləndirir (ikinci müdafiə xətti);

4.2.3. daxili audit funksiyası bankın ekoloji risklərin idarə edilməsi sisteminin etibarlılığını qiymətləndirir (üçüncü müdafiə xətti).

## 5. Ekoloji risklərin müəyyən edilməsi və qiymətləndirilməsi

5.1. Bank müştəri və portfel səviyyələrində əsas ekoloji riskləri müəyyən edir və onların bankın fəaliyyətinə potensial təsirini qiymətləndirir.

5.2. Ekoloji risklərə həssaslığı yüksək olan sektorları müəyyən etmək üçün risk meyarları müəyyən edilir. Belə meyarlara aşağıdakı göstəricilər daxil edilə bilər:

5.2.1. istixana qazları emissiyasının səviyyəsi;

5.2.2. ekstremal hava hadisələrinə qarşı həssaslıq;

5.2.3. su çatışmazlığı;

5.2.4. quraqlıq;

5.2.5. meşələrin qırılması;

5.2.6. çirklənmə.

5.3. Ekoloji risklər üzrə siyasət çərçivəsi həmin risklərə həssaslığı yüksək olan hər bir sektor üzrə bankın mövcud və yeni müştərilərə, habelə onların ekoloji risklərin idarə edilməsi strategiyasına münasibətdə gözləntilərini müəyyən edir. Bu zaman beynəlxalq səviyyədə qəbul olunmuş dayanıqlılıq standartları və sertifikatlaşdırma alətlərindən istifadə oluna bilər.

5.4. Bank 1-ci, 2-ci və 3-cü dərəcəli emissiyanın ölçülməsini təmin edir. 3-cü dərəcəli emissiyasının ölçülməsi biznes kreditləri üzrə aparılır. Biznes kreditləri üzrə istixana qazlarının emissiyasının ölçülməsinə dair ümumi tövsiyələr bu Təlimata 1 nömrəli Əlavədə təqdim edilir.

5.5. Bank kreditləşmə fəaliyyəti çərçivəsində hər bir müştəri üzrə ekoloji risk qiymətləndirilməsi aparır. Bu zaman kənar reytinqlərdən istifadə edilə bilər. Qiymətləndirmə zamanı aşağıdakılar nəzərə alınır :

5.5.1. müştərinin fiziki və keçid risklərinə həssaslığı;

5.5.2. müştərinin bu riskləri idarə etmək səriştəsi, cavabdehliyi və təcrübəsi.

5.6. Qiymətləndirmənin əhatə dairəsi və dərinliyi müştərinin fəaliyyət göstərdiyi sektor, əməliyyatların xüsusiyyətləri və həcmindən asılı olaraq müəyyən edilir.

5.7. Ekoloji risklərə həssaslığı yüksək olan əməliyyatlar (fəaliyyətlər) üzrə müştərinin biznes fəaliyyətinə yerində baxışın keçirilməsi və ətraf mühit üzrə ixtisaslaşmış daxili və xarici ekspert rəylərinin əldə edilməsi daxil olmaqla daha dərin qiymətləndirmə aparılır. Zəruri hallarda belə əməliyyatların həyata keçirilməsinin məqsədəuyğunluğuna bankdaxili komitə və ya rəhbərlik səviyyəsində baxılır.

## 6. Ekoloji risklərin tənzimlənməsi və monitorinqi

6.1. Bank müştəri və portfel səviyyəsində ekoloji riskləri proaktiv qaydada idarə edir. Müştərinin fəaliyyətinin mütəmadi monitorinqi aparılır və ətraf mühitə zərər verə biləcək və bankın siyasətinə uyğun olmayan fəaliyyətlərin vaxtında aşkar edilməsini təmin edir.

6.2. Müştəri səviyyəsində risklərin idarə edilməsi məqsədi ilə aşağıdakı metod və yanaşmalardan istifadə olunur:

6.2.1. ekoloji risklərə həssaslığı bankın müəyyənləşdirdiyi məqbul səviyyədən yuxarı olan hər bir müştəri ekoloji risk profilini yaxşılaşdırmağa və tədricən dayanıqlı biznesə keçid etməyə təşviq edilir. Bu məqsədlə aşağıdakı mexanizmlərdən istifadə edilə bilər:

6.2.1.1. müqavilədə müəyyən edilmiş xüsusi hüquqi və maliyyələşmə şərtlərindən (kovenantlar) istifadə edilməklə müştəridən ekoloji risk səviyyəsini məqbul səviyyəyə gətirmək tələb oluna bilər. Belə şərtlərə dayanıqlı biznes modelinə keçid strategiyasının hazırlanması və icrası, habelə müvafiq sertifikatlaşdırma və sektor standartlarına riayət edilməsi daxil edilə bilər;

6.2.1.2. müştəri ilə razılaşdırılmaqla müştəri üzrə ekoloji fəaliyyət hədəflərinin (nəticə indikatorlarının) müəyyən edilməsi. Belə hədəflərə müştərinin karbon emissiyasının azaldılması və enerji səmərəliliyinin yaxşılaşdırılması kimi tədbirlər daxil ola bilər;

6.2.1.3. iqlim risklərini azaltmaq və ya məqbul səviyyədə saxlamaq üçün müştərinin biznesinin sığortalanmasının təmin edilməsi. Bu məqsəd ilə bank tərəfindən müştərilərinə uyğun sığorta məhsullarının seçilməsi və risklərin daha effektiv şəkildə idarə edilməsi istiqamətində dəstək göstərilə bilər;

6.2.2. ekoloji riskləri bankın müəyyənləşdirdiyi məqbul səviyyədən yuxarı olan müştərilər üzrə tədbirlər müəyyən edilərkən riskin miqyası, müştəri ilə münasibətlər, müştərinin ekoloji risk profilini yaxşılaşdırmaq istəyi və səriştəsi, habelə ekoloji riskləri azaltmaq üçün alternativ vasitələrin mövcud olub-olmaması nəzərə alınır;

6.2.3. ekoloji risklərini adekvat qaydada tənzimləyən müştərilərə münasibətdə, habelə müştərinin ekoloji risklərinin məqbul səviyyəyə gətirilməsi məqsədilə müəyyən edilmiş hədəflərə nail olmaq üçün bank tərəfindən müvafiq təşviqedici mexanizmlər müəyyən oluna bilər. Belə tədbirlərə müştəriyə daha aşağı kredit faizinin təklif edilməsi, kredit məbləğinə əlverişli limitlərin tətbiq edilməsi və digər oxşar tədbirlər daxil edilə bilər;

6.2.4. Bank müştərilərini ekoloji risklər və fürsətlər haqqında mütəmadi qaydada maarifləndirir və onları bu risklərlə bağlı məlumatların açıqlanmasına və məsuliyyətli davranış göstərilməsinə təşviq edir.

6.3. Portfel səviyyəsində ekoloji riskləri idarə etmək üçün aşağıdakı kəmiyyət və keyfiyyət alətləri tətbiq edilə bilər:

6.3.1. ekoloji risklərə həssaslığı yüksək olan coğrafi ərazilər və sektorlar üzrə portfel risklərinin qiymətləndirilməsi;

6.3.2. ekoloji risklərə həssaslığı yüksək olan coğrafi ərazilər və sektorlar üzrə müştərilərin karbon intensivliyinin ölçülməsi;

6.3.3. girovun qiymətləndirilməsi zamanı girov predmeti üzrə ekoloji risklərin nəzərə alınması;

6.3.4. kredit portfelinin ölkənin iqlim riskləri üzrə Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr ilə müəyyən edilmiş hədəflərə uyğunluğunun təmin edilməsi;

6.3.5. müştəri və portfel üzrə risk indikatorlardan istifadə edilməklə əsas müştəri seqmentlərinin təbiət ekosistemindən asılılığının qiymətləndirilməsi. Bu indikatorlara su çatışmazlğının müştərilərin maliyyə göstəricilərinə təsiri və ya biomüxtəlifliyin itirilməsinin məhsul istehsalı, qida istehsalı və emal sənayesi kimi müvafiq sahələrin gəlirliliyinə təsiri daxil edilə bilər. Ətraf mühit ilə bağlı risk indikatorları müəyyən edilərkən ekoloji risk amillərinin miqyası nəzərə alınır. Risklər əhəmiyyətli səviyyədə olduqda, bank bu risklərin azaldılması üçün tədbirlər görür. Məsələn, belə tədbirlərə ekoloji risklərə həssaslığı yüksək olan coğrafi ərazilər və sektorlar üzrə portfelin konsentrasiyanın tənzimlənməsi daxil ola bilər.

6.4. Bankın üzləşdiyi aşağıdakı əsas risklərin müəyyənləşdirilməsi və idarə edilməsi zamanı ekoloji risklər nəzərə alınır:

6.4.1. **kredit riski:** ekstremal hava şəraitinin artan tezliyi və şiddəti bankların müştərilərinə məxsus aktivlərin dəyərini azalda və ya müştərilərin əməliyyatlarına, gəlirliliyinə və təchizat zəncirinə mənfi təsir göstərə bilər. Həmçinin, aşağı karbon iqtisadiyyatına keçid karbon tutumlu sahələrdə fəaliyyət göstərən müştərilərin biznes fəaliyyətinə təsir edə bilər. Bundan əlavə, fəaliyyəti ətraf mühitin çirkləndirilməsinə səbəb olan müştərilərə qarşı aidiyyəti dövlət orqanları tərəfindən görülən tədbirlər (məsələn, cərimələr, fəaliyyətə verilmiş icazənin ləğvi) bu müştərilərə əhəmiyyətli maliyyə təsiri ilə nəticələnə bilər. Həmçinin, su ilə bağlı risklər (məsələn, su çatışmazlığı, suyun çirklənməsi, quraqlıq) su tutumlu sektorlarda fəaliyyət göstərən şirkətlərin əməliyyat xərclərini artıra bilər. Bu amillərin müştərilərin borc öhdəliklərini ödəmək imkanlarını azaltması, banklar tərəfindən saxlanılan girovların dəyərsizləşməsi bankların kredit riskini artıra bilər. Bu baxımdan, ekoloji risklər kredit müraciətlərinin qiymətləndirilməsi və monitorinqi çərçivəsinə inteqrasiya

edilir. Bu xüsusda, ekoloji amillərlə bağlı kredit risklərinin idarə edilməsi çərçivəsi sektoral, coğrafi və ayrı-ayrı müştərilər üzrə, habelə fiziki və keçid risklərindən yaranan konsentrasiyanı əhatə edir. Eyni zamanda, müxtəlif aktiv kateqoriyaları arasında korrelyasiya əlaqəsi üzrə baş verə biləcək potensial dəyişikliklər nəzərə alınır. Bankın risk iştahasına uyğun olaraq əhəmiyyətli ekoloji risklərə münasibətdə kredit limitləri tətbiq oluna bilər;

6.4.2. **bazar riski:** ekoloji və iqlim dəyişiklikləri nəticəsində meydana gələn təbii fəlakətlər, qlobal istiləşmə və ekstremal hava hadisələri kimi faktorlar investisiya bazarlarında qiymətlərə və iqtisadi aktivliyə təsir edə bilər. Məsələn, su səviyyəsinin qalxması və ya tez-tez baş verən daşqınlar çay yataqlarına yaxın yerləşən əmlak və infrastrukturun dəyərlərini azalda bilər ki, bu da müvafiq aktivlərə investisiya edən bankların portfellərinə mənfi təsir edə bilər. Enerji qiymətlərinin dalğalanması, xüsusilə bərpa olunan enerji mənbələrinin artan istifadəsi ilə bağlı olaraq, ənənəvi enerji sektoru fəaliyyətlərinə sərmayə qoyan banklar üçün riskləri artıra bilər. Bundan əlavə, iqlim dəyişikliyi ilə əlaqədar siyasət və qanunvericilikdəki dəyişikliklər, karbon emissiyasına qoyulan məhdudiyyətlər bazar risklərini təsir edən amillər arasındadır. Bank bu dəyişikliklərin onun bazar riski profilinə təsirini qiymətləndirir və mütəmadi monitorinqini aparır. Bu məqsəd ilə qabaqcıl beynəlxalq standartlar və təcrübələrdən istifadə edilməklə ekoloji amillərdən yaranan bazar risklərinin ölçülməsi metodologiyası hazırlanır və əhəmiyyətli hesab edilən riskləri idarə etmək üçün effektiv alətlər tətbiq edilir;

6.4.3. **likvidlik riski:** təbii fəlakətlərin intensivliyinin artması əmlaklara geniş miqyaslı fiziki zərər yetirə bilər. Təmir (bərpa) ilə bağlı maliyyə resurslarına ehtiyacın yaranması banklardan depozitlərin çıxarılmasına, artan kredit müraciətlərinə və nəticədə banklarda likvidlik probleminə gətirib çıxara bilər. Həmçinin, banklar kəskin hava şəraiti nəticəsində zərər görmüş əmlakların, yaxud aşağı karbon tutumlu iqtisadiyyata keçid nəticəsində dəyərsizləşmiş əmlakların likvidasiyası zamanı da çətinliklə üzləşə bilərlər. Bundan əlavə, ətraf mühit məsələləri barədə məlumatlı və həssas əmanətçilər və investorlar bu istiqamətdə neqativ imicə malik təşkilata investisiyalarını yenidən nəzərdən keçirə bilər. Bank ekoloji risklərin onun likvidlik mövqeyinə təsirini qiymətləndirir və əhəmiyyətli təsir aşkar edildikdə likvidlik riskinin idarə edilməsi çərçivəsinə və likvidlik mövqeyinə müvafiq dəyişikliklər edir;

6.4.4. **əməliyyat riski:** kəskin hava şəraitinin artması bankın infrastrukturuna, əməliyyatlarına və əməkdaşlarına təsir edərək biznesin davamlılığına manelər yarada bilir. Bank ekoloji risklərin onun fəaliyyətinə, nəzarət sisteminə və əməliyyat mühitinə təsirini qiymətləndirir. Qiymətləndirmə bütün biznes sahələrini və əməliyyatlarını, habelə üçüncü tərəflərin təqdim etdiyi əməliyyatları əhatə edir. Ekoloji risklərin bankın fəaliyyətinin fasiləsizliyinə təsiri nəzərə alınır;

6.4.5. **imic riski:** bu risk iqlim və ekoloji məsələlər ilə bağlı cəmiyyətdə artan məlumatlılıq fonunda bankların ətraf mühitə mənfi təsir göstərən biznes fəaliyyəti ilə məşğul olan müştəriləri maliyyələşdirməsi nəticəsində yarana bilər. Belə maliyyələşdirmə fəaliyyətlərinə mənfi münasibət bankların işgüzar əlaqələri saxlamaq və ya qurmaq qabiliyyətinə mənfi təsir göstərə bilər. Bank iqlim dəyişikliyinə uyğunlaşma və azaldılma strategiyalarının tətbiqi zamanı şəffaflığı və hesabat vermə standartlarını qoruyaraq, müştərilər, investorlar və digər tərəfdaşlar arasında etibarını artırmaq üçün çalışır. Bu proses, sosial media və korporativ kommunikasiyalar vasitəsilə aktiv məlumatlandırma kampaniyalarını, həmçinin iqlimlə bağlı təşəbbüslərin geniş miqyasda tanıdılmasını əhatə

edir. Bank həmçinin müvafiq tədbirlər planı hazırlayır və qarşılaşabiləcəyi iqlimlə bağlı imic risklərinin qarşısını almaq üçün aktiv tədbirlər görür.

6.5. Bankın fövqəladə hallar planına ekoloji risklər (əsasən fiziki risklər) və onların təsirlərin azaldılması tədbirləri daxil edilir.

## 7. Ssenari təhlili və stress-testlər

7.1. Əhəmiyyətli ekoloji risklərin bankın risk profili və biznes strategiyasına təsirini, habelə müxtəlif ssenarilərdə maliyyə dayanıqlılığını qiymətləndirmək üçün ssenari təhlili və stress-test alətlərindən istifadə edilir.

7.2. Ekoloji və digər risklər arasında qarşılıqlı əlaqələr nəzərə alınmaqla baş verməsi mümkün ssenarilər müəyyənləşdirilir və simulyasiya edilir. Həm keyfiyyət, həm də kəmiyyət meyarları ssenarilərə daxil edilir və maliyyə dayanıqlılığı baza və stress ssenariləri üzrə olmaqla proqnozlaşdırılır. Ekoloji risklər üzrə ssenari analizi və stress-test aparılması üçün bankda müvafiq daxili potensial formalaşdırılır.

7.3. Strateji planlaşdırma və risklərin idarə edilməsi məqsədləri üçün qısa və uzun müddətli ekoloji ssenarilər stress-test proqramlarına daxil edilir. Ssenarilər fiziki və keçid risklərini əhatə edir, konservativ tərtib olunur və mütəmadi yenilənir.

7.4. Ssenarilər Maliyyə Sisteminin Yaşıllaşdırılması Şəbəkəsi (NGFS[2]) tərəfindən təqdim edilən iqlim ssenariləri nəzərə alınmaqla fiziki və keçid riskləri üzrə hazırlana bilər. Məsələn, fiziki risklərlə bağlı iqlim dəyişikliyi və ekstremal hadisələrin müştərilərin portfelindəki aktivlərə, onların gəlirinə və defolt ehtimalına təsiri qiymətləndirilə bilər. Keçid riski ilə bağlı isə karbon tutumlu fəaliyyətlər üzrə dövlətin siyasət çərçivəsində dəyişikliklər, həmin fəaliyyətlərin xərcinin artmasının (karbon vergisi və digər mexanizmlər vasitəsilə) müştərilərin pul axınlarına və kredit qabiliyyətinə təsiri təhlil edilə bilər.

7.5. Ssenarilər müəyyən edilərkən tarixi göstəricilər ilə yanaşı gələcək yönümlü proqnozlar da nəzərə alınır.

7.6. Ssenari təhlili və stress-testlərinin nəticələri ekoloji risklərinin idarə edilməsi siyasəti və prosedurlarının müəyyən edilməsi və ya onlara yenidən baxılması zamanı nəzərə alınır.

## 8. Məlumatların açıqlanması və hesabatlıq

8.1. Bank tərəfindən azı illik əsasda, ekoloji risklərin idarə edilməsi yanaşması, habelə əsas ekoloji risklər və onların bankın dayanıqlılığına potensial təsirinə dair məlumatlar açıqlanır.

8.2. Bank tərəfindən ekoloji risklərlə bağlı açıqlanan məlumatların tərkibi və strukturu beynəlxalq standartlara, o cümlədən Maliyyə Sabitliyi Şurasının İqlimlə əlaqədar Maliyyə Açıqlamaları üzrə İşçi Qrupunun (TCFD[3]) tövsiyələrinə uyğun müəyyən olunur və ən azı aşağıdakıları əhatə edir:

8.1.1. ekoloji risklərinin idarə edilməsi, o cümlədən iqlim risklərinin və fürsətlərin qiymətləndirilməsi və tənzimlənməsi sahəsində Müşahidə Şurasının, İdarə Heyətinin və digər rəhbərliyin rolu;

[2] Network for Greening the Financial System
[3] Task Force on Climate-Related Financial Disclosures

8.1.2. bankın məruz qaldığı əsas ekoloji risklər (cari və gələcək) və yaranan fürsətlər, onların bankın biznes fəaliyyəti, strategiyası və maliyyə planlaşdırmasına təsirinə dair məlumat;

8.1.3. bank tərəfindən ekoloji risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və idarə edilməsi, bununla bağlı göstəricilər və hədəflərə dair məlumat;

8.1.4. bankın 1-ci və 2-ci dərəcəli emissiyasının, habelə bank tərəfindən maliyyələşdirilmiş 3-cü dərəcəli emissiyanın həcmi barədə məlumat;

8.2. Ekoloji risklərlə bağlı məlumatların açıqlanması çərçivəsi müvafiq beynəlxalq standartlar və metodoloji sənədlər nəzərə alınmaqla mütəmadi nəzərdən keçirilir və zəruri təkmilləşdirmə tədbirləri həyata keçirilir.

8.3. Ekoloji risklərinin effektiv idarə edilməsi məqsədilə bankın risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölməsi tərəfindən bankın məruz qaldığı iqlim riskləri üzrə bankdaxili hesabat hazırlanır. Hesabatda bankın məruz qaldığı iqlim riskləri, bu risklərin bankın risklərin idarə edilməsi siyasətinə adekvatlığı, habelə risklərin bankın kapitalına təsiri barədə məlumatlar əks olunur.

8.4. Hesabatlar ən azı yarım illik əsasda hazırlanır və İdarə Heyəti tərəfindən Risklərin İdarə edilməsi Komitəsinə (RİK) təqdim edilir. RİK tərəfindən baxıldıqdan sonra hesabatlar bankın Müşahidə Şurasına təqdim edilir.

“Banklarda ekoloji risklərin idarə edilməsi üzrə Təlimat”a

**Əlavə 1**

**Üçüncü dərəcəli emissiyanın ölçülməsi ilə bağlı ümumi tövsiyələr**

Banklar maliyyə xidmətlərini həyata keçirən zaman borcalanlar vasitəsilə ətraf mühitə təsir etmiş olurlar. Bu təsir 3-cü dərəcəli emissiya (maliyyələşdirilmiş emissiya) kimi təsnifləşdirilir. Bank maliyyələşdirilmiş emissiyanın həcmini PCAF[4] və GHG Protokolu[5] kimi beynəlxalq standartlardan istifadə etməklə hesablayır. Həmin standartlar banklar üçün maliyyə xidmətlərinə uyğun olaraq zərərli qazların hesablanması və açıqlanması üçün standartlaşdırılmış metodologiyaları və emissiya faktorlarını təqdim edir.

Qeyd edilən standartlar tətbiq edilməklə üçüncü dərəcəli emissiyanın ölçülməsi aşağıdakı qaydada həyata keçirilir:

1. Qiymətləndirməyə daxil ediləcək maliyyə xidmətləri müəyyən edilir. Bura istixana qazları emissiya edən biznes fəaliyyətlərini maliyyə ilə təmin edən biznes kreditləri və investisiyalar daxildir.
2. Ayrı-ayrı sektorlarda (məsələn, kənd təsərrüfatı, istehsal, enerji) fəaliyyət göstərən şirkətlərə ayrılmış biznes krediti və investisiyaların həcmi hesablanır.
3. Hər bir sektor üzrə emissiya faktoru müəyyən edilir. Emissiya faktoru hər bir sektor üzrə xidmət və mal vahidinə uyğun olaraq emissiya miqdarını əks etdirir.
4. Emissiya faktorundan istifadə etməklə maliyyələşdirilmiş emissiyanın həcmi hesablanır. Məsələn, bank tərəfindən neft sahəsində fəaliyyət göstərən şirkətə verilmiş kreditin məbləğinin neft sektoru üzrə emissiya faktoruna hasili həmin kredit üzrə maliyyələşdirilmiş emissiyanın həcmini müəyyən edir.
5. İcmallaşdırma: Müxtəlif maliyyə məhsulları və sektorlar üzrə emissiyalar hesablandıqdan sonra bankın maliyyə portfelinin ümumi emissiyası hesablanır.

[4] Maliyyə üzrə Karbon Hesablama Tərəfdaşlığı (The Partnership for Carbon Accounting Financials)
[5] İstixana Qazları Protokolu (Greenhouse Gas Protocol)